AZADLIQ VƏ İSTİQLALİYYƏT HƏR BİR XALQIN MİLLİ SƏRVƏTİDİR
*Heydər Əliyev*

# DİPLOMAT

№ 09 (85) 01-15 may, qulan 2008
Ji meha şûbatê sala 2003-a tê weşandin

İctimai-siyasi qəzet
Rojnama civakî û sîyasî

Qiymətі, Hêjaye 30 qəpik

## HEYDƏR ƏLİYEV 85



# ULU ÖNDƏR HƏR ZAMAN BİZİMLƏDİR

www.netewe.com

# "BAKI-TBİLİSİ-CEYHAN" ƏSRİN DÜNYƏVİ SÜLH MÜQAVİLƏSİ



***Hər** bir insan arzu edər ki, dahi, möhtərəm və mötəbər dövlət rəhbərləri ilə görüşsün. Belə fürsətlərdən biri də mənə qismət oldu. Və mənə dünya siyasətçilərinin öndərləri sırasında olan ümummilli lider, böyük öndər, müdrik insan, dövlət rəhbəri Heydər Əliyev cənabları ilə görüşmək nəsib oldu. O gün mənim həyatımın ən xoş günlərindən biri idi. O günü mən hər zaman xoş xatirələr kimi anıram və yeri düşəndə o görüş barədə dostlara fəxrlə danışıram.*

O ölməz insanla görüşdüyüm üçün özümü xoşbəxt sayıram.

1992-ci ilin dekabr ayı idi.Hər yerdə hərc-mərclik hökm sürürdü Cəbhədə itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu. Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim, heç kimin ərizəsini oxumaq istəmirdi. Deməк olar ki, ölkə idarə



olunmaz xaosa çevrilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, o dövrlərdə Azərbaycanda böyük hərc-mərcliklər baş alıb gedirdi. Vətəndaş müharibəsinin başlamasına zəmin yaranmışdı, qardaş qırğını başlamışdı. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi.

Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi xilas etdi.



O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq. Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda, düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istədilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz vaxtında hakimiyyətə xalq tərəfindən gətirilən Heydər Əliyev cənabları onları bu fəlakətdən xilas etdi.

Üç saata qədər o müdrik insanla söhbət etdik. Olduqca sakit, səbr və təmkinlə bizi dinlədi. Müdrik, qayğılı, mavi okeanlar kimi sonsuz, dərin və mənalı gözləri ilə sanki insanların qəlbini, düşüncəsini oxuyurdu. Zaman keçdikcə, həqiqətən onun nə qədər uzaqgörən siyasətə malik olduğunu daha çox dərk etdim.

O, Azərbaycanımızın inkişafı və dirçəldilməsi üçün bir çox müqavilələr və kontraktlar bağlayıb, dəyərli görüşlər keçirib. Bu müqavilələrlə o, Azərbaycanımızı dünya dövlətlərinə tanıtdı, dünya dövlətlərini Azərbaycana bağladı və dünya səhmdarlarını Azərbaycana sərmayə qoymağa sövq etdi. Azərbaycanımız üçün çox dəyərli olan bu müqavilələrdən biri də "Bakı-Tbilisi-Ceyhan"əsrin müqaviləsidir. Bu müqavilənin imzalanmasını düşünəndə, insana yalnız iqtisadi mənfəət və neft ixracatı gəlir. Lakin bu məsələ barədə dərindən düşünəndə görürük ki, müdrik insan, xalqımızın ulu öndəri, Heydər Əliyev bu müqavilə ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə, Avropanın bir sıra dövlətlərini, eləcə də ABŞ-nı biri-birinə bağlayıb və sazişsiz, müqaviləsiz bu ölkələr arasında sanki sülh müqaviləsi imzalayıb. Bu ölkələr bundan belə biri-birinin müdafiəsinə qalxmağa, biri-birinin sözünü deməyə, arxa durmağa, yardım etməyə məcburdurlar. Çünki Ulu Öndərin uzaqgörən siyasəti sayəsində bu ölkələr özləri də bilmədən biri-birinə bağlandı və özü də elə güclü qüvvə ilə bağlandı ki, bu bağlılığı heç bir qüvvə poza bilməz. "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsini, "Bakı-Tbilisi-Ceyhan" **əsrin dünyəvi sülh müqaviləsi** adlandırsaq daha düzgün olar. Bəli, bu gün minlərlə müxtəlif ölkələrin şirkətləri, səhmdarları Azərbaycanda bünövrə salıb çalışırlar. Azərbaycanımız günü-gündən qüdrətlənir, inkişaf edir, gözəl binalar ucaldılır, əvəzolunmaz yollar salınır, əfsanəvi körpülər qurulur, fabrik və zavodlar açılır. Ölkəmizin hansı guşəsinə gedirsən get gözəl parklar, istirahət zonaları, abad yollar görərsən. Respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində yeni, gözəl göz oxşayan binalar tikilir, uçqar rayonlarımıza qaz



və rahat yollar çəkilir. Küçələrimizdə, həyətlərimizdə müxtəlif çeşitli rahat maşınlar göz oxşayır. Xalqımızın maddi durumu günü-gündən yaxşılaşır, əlil və qocaların, imtiyazlı vətəndaşlarımızın maaşları artır. Xalqımız firəvan həyat sürməyə başlayıb. Mən inanıram ki, xalqımız Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əliyev siyasətini dəstəkləyəcək! Azərbaycan xalqı Heydər Əliyev ideyalarının həyata keçirilməsi naminə, ömrümüzün sonuna



kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün, möhtərəm prezidentimiz, İlham Əliyev cənablarına yaxın dəstək olacağıq.

Budur bu gün respublikamızın hər yerində, eləcə də dünyanın bir çox ölkələrində Ulu Öndərin 85-illik yubileyi keçirilir.

İnamla demək olar ki, prezidentimiz İlham Əliyev cənablarının indiki siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənəcək, gözəlləşəcək və dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarıda olacaqdır.



**Hazırladı:**
**"Diplomat" qəzetinin baş redaktoru**
***Tahir SÜLEYMAN***

# Dünya ümummilli lider Heydər Əliyev haqqında

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc BUŞ,**
**Amerika Birləşmiş Ştatlarının prezidenti.**

Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

Onun vəfatı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.



**Vladimir PUTİN,**
**Rusiya Federasiyasının prezidenti.**

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Jak ŞİRAK,**
**Fransa Respublikasının prezidenti.**

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

**Toni BLEYER,**
**Böyük Britaniyanın Baş naziri.**

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

**Nursultan NAZARBAYEV,**
**Qazaxıstan Respublikasının prezidenti.**

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

**Gerhard ŞRÖDER,**
**Almaniya Federativ Respublikasının federal kansleri.**

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel,**
**Roma papası.**

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

**Çingiz Aytmatov,**
**Qırğızıstan xalq yazıçısı.**

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

**Butros-Butros Qali,**
**BMT-nin sabiq Baş katibi.**

# Ulu öndər Heydər Əliyevin müdrik kəlamları

-Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz.

-Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləkinə müxlifətdə durmasın.

-Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.

-Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir. Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.

-Tarix həmişə hər şeyi öz yerinə qoyur.

-Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.

-Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

-Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyəti hər bir adama lazımdır.

-Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.

-Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır.

-Heç kim əbədi qalib ola bilməz.

-Heç bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz.

-Kim ki, biliyindən, bacarığından artıq iddialar edir o, həmişə məğlub olur.

-Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.

-İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir.

-Sənətdə hər kəsin öz yeri var. Heç kəs kiminsə yerini almır.

-Heç bir ölkəni özünə düşmən hesab etməməlisən.

-Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər bir kəs özü seçir.

-Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir.

-Ədalətsizliklə ədaləti bərpa etmək olmaz.

-İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

-Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır.



-İlk işə başlayan şəxslərin üzərinə həmişə çox böyük, şərəfli vəzifələr düşür.

-Öz ana dilini bilməyən adamlar şikəst adamlardır!

-Ağıl olan yerdə zora ehtiyac yoxdur.

-Rüşvətxorluq bizi içimizdən yeyir.

-Yol - iqtisadiyyat, mədəniyyət, bir sözlə həyat deməkdir.

-Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.

-Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.

-Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

-Dövlət onun ərazisində yaşayan əhalinin təminatçısı olmalıdır.

-Bizim bütün təbii sərvətlərimiz xalqa məxsusdur və bu sərvətlərdən istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur.

-Həqiqəti gizlətmək, həqiqətin üstünü basdırmaq olmaz.

-Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır.

-Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir.

-Dünya ümumiyyətlə quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edib.

-Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.

-Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir.

-Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

-Müstəqillik yolu qədər çətin yol yoxdur.

-Ölkələr arasında dostluq münasibətlərinin möhkəmlənməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür.

-Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.

-Xalq gərək daim öz kökünü xatırlasın.

-Tariximizin hər səhifəsi bizim üçün əzizdir.

-Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

-Tariximiz bizim üçün dərs olmalıdır.

-Tarix heç nəyi silmir.

-Xalq milli əhval-ruhiyyə ilə milli mənlik zirvəsinə qalxırsa, onun başında duran adamlar isə öz şəxsi mənafelərinə görə xalqın başından basılarsa,' bax, bu, xalqın ən böyük faciəsidir.

-Kiməsə qarşı ədalətsizlik edilibsə, bu ədalətsizliyin qarşısını ədalətlə almaq lazımdır. Amma ədalətsizliyə qarşı daha böyük bir cinayət törətmək, ədalətsizlikdən də betərdir.

-Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacağıq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq!

-Quran-şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yolları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

-Biz təbiətə qarşı zor işlədə bilmərik.

-Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.

-Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun.

-İnsan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır.

Hamı bir boyda ola bilməz, hamının eyni fikri ola bilməz.

-Fikir müxtəlifliyi təbii hadisədir.

-Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

-Dil böyük bir aləmdir.

-Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək, şübhəsiz ki, xalq qarşısında böyük qəbahətdir.

-Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

-Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir. Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

-Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tuturlar.

-Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər.

-Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.

-Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir!

-Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır.

-Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı, artist - bunlar fitri istedada malik olan nadir adamlardır.

-Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır.

-Vətənpərvərlik insanın daxilindəki duyğulardır.

-Əgər bunlar yoxdrusa, o insan mənəviyyatsızdır.

-Gərək nəbzin Vətənin nəbzi ilə vursun.

-Tənqid həmişə işə kömək edir.

-Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!

# ÖMRÜNÜ-GÜNÜNÜ XALQIN









1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Heydər Əlirza oğlu Əliyev 1923-cü ildə Naxçıvanda anadan olub. 1939-cu ildə Pedoqoji texnikumu, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirib. 1941-1944-cü illərdə Naxçıvan MSSR-də SSRİ-nin Daxili Məsələlər Üzrə Milli Komissarlığında, 1944-cü ilin mayında isə Dövlət Təhlükəsizlik Orqanlarında çalışmağa başlayıb. 1964-cü ildə Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildən isə



## Dahi şəxsiyyətin keş

Komitənin sədri təyin edilib. 1969-cu ilin iyul ayından Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi seçilib. 1982-1987-ci illərdə SSR Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə yüksəlib, eyni vaxtda, 1986-cı ildən SSRİ Nazirlər Soveti Sosial-İnkişaf Bürosunun sədri olub. 8-11-ci çağırışlarda SSRİ Ali Sovetinə deputat seçilib. 1987-ci ildə təqaüdə çıxsa da, 3 ildən sonra yenidən siyasətə qayıdıb. 1990-cı ilin yanvarında Bakıda qanlı hadisələr dövründə Heydər Əliyev Azərbaycan SSR-nin Moskvadakı nümayəndəliyinə gələrək Qorbaçov siyasətinə qarşı kəskin çıxış edir. 1991-ci ilin iyulunda isə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası sıralarından çıxır.

Vətənə qayıdan Heydər Əliyev 1991-ci ildə Naxçıvan MR-nin Ali Məclisinin sədri seçilir. 1993-cü ilin yayında Azərbaycanın Prezidenti Əbülfəz Elçibəy başda Sürət Hüseynov olmaqla qiyamçıların təzyiqi altında Bakını tərk edərkən Heydər Əliyev paytaxta gəlir və Azərbaycan Ali Sovetinin sədri seçilir və bir neçə gün sonra Ali Sovetin qərarı ilə Prezidentin səlahiyyətləri ona verilir. Həmin ilin oktyabrında isə Prezident seçilir.

Dövlətə başçılıq edən Heydər Əliyev Qarabağda müharibəni dayandırır, "Əsrin müqaviləsi"ni imzalayır, 1998-ci ildə isə yenidən Prezident seçiləndən sonra "Əsrin tikintisi" - Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin təşəbbüskarı olur. 2003-cü ilin Prezident seçkilərində isə son anda İlham Əliyevin xeyrinə namizədliyini geri götürür. Heydər Əliyev müstəqillik dövründə yenidən hakimiyyətə qayıtdıqdan sonra ölkədə sabitlik, əmin-amanlıq yaradıb, qanunsuz silahlı qruplaşmaların fəaliyyətinə son qoyub. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanması və cəbhədə atəşkəsin elan olunması dövrünün başlanması onun adıyla bağlıdır. Avropada Qərbin diplomatik dairələrində onu sabitliyin qarantı və yeni iqtisadi islahatların aparıcısı kimi tanıyırlar.

Heydər Əliyev bütün ömrünü Azərbaycan xalqının xoşbəxt gələcəyinin qurulmasına həsr edib. Azərbaycan tarixinin təxminən 34 illik bütöv bir dövrü onun adı ilə bağlıdır. Heydər Əliyevin işıqlı xatirəsi Azərbaycan xalqının yaddaşında daima yaşayacaq!

### Yeni Azərbaycanın qurucusu

İstər Sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyev Azərbaycanın inkişafı naminə əlindən gələni əsirgəməyib. Xüsusilə də son on ildə Azərbaycanda dövlət quruculuğu sahəsində onun rolu müstəsnadır. Heydər Əliyev respublikamızın ilk prezidenti olmasa da, onun dövlətçiliyimizin möhkəmlənməsi, bir növ yenidən qurulması istiqamətində göstərdiyi səylər əvəzedilməzdir. Təsadüfi deyil ki, onun adının qarşısına artırılan və ən çox istifadə edilən ifadələrdən biri də "Yeni Azərbaycanın qurucusu" sözləridir.



(Ardı səh.5-də)

# A HƏSR EDƏN DAHİ İNSAN








# şməkeşli ömür yolu

(Əvvəli səh.4-də)



90-cı illərin əvvəllərində SSRİ-nin məngənəsindən yenicə çıxan və özünün ilkin müstəqilliyindən 71 il aralı qalan Azərbaycanın dövlətçiliyinin restavrasiyasına önderlik edə biləcək və böyük təcrübəyə malik bir insana olan ehtiyac özünü açıq şəkildə büruzə verirdi. Sovetlər İttifaqı son anlarını yaşasa da, onun məkrli rəhbərləri müstəqilliyə can atan respublikaların qarşısına müxtəlif əngəllər çıxarmağa cəhd göstərirdilər. İstər Ermənistan azərbaycanlılarının deportasiyası, istərsə də, 20 Yanvar faciəsi bu əngəllərin təzahürü idi. Lakin bütün bunlara baxmayaraq, xalqımızın iradəsi və azadlıq eşqi qəhrəman övladlarının qanı bahasına müstəqilliyi təmin etdi. Lakin müstəqillikdən sonra daha məsuliyyətli bir proses başladı. Çünki müstəqilliyi qorumaq onu əldə etməkdən daha çətin idi. Bu mənada dövlət strukturlarının möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Heydər Əliyev məhz bu məqamda Naxçıvandan Bakıya rəsmən dəvət edildi. O andan etibarən Azərbaycanın dövlət quruculuğu sahəsində canlanma müşahidə olunmağa başladı. Hər şeydən əvvəl, o, daxildə Azərbaycanın bütövlüyünə xələl gətirməyə çalışan və mərkəzə tabe olmaqdan boyun qaçıran bir qrup qüvvəni zərərsizləşdirdi. Daha sonra müxtəlif səpgili islahatlar həyata keçirməklə böyük quruculuq işlərini davam etdirdi. Heydər Əliyevin onilliklərə söykənən təcrübəsi və uzaqgörənliyi iqtisadiyyat, milli siyasət, mədəniyyət və digər sahələrin yeni məzmunda formalaşdırılmasına xüsusi kömək göstərdi. Onun məqsədyönlü səyləri nəticəsində yeni Azərbaycan quruldu, Sovet Azərbaycanından tamamilə fərqlənən yeni məzmunlu Azərbaycan çiçəklənməyə başladı. Heydər Əliyev dövlətçiliyin təməllərini sarsılmazlığını elə təmin etdi ki, bu gün hər bir sıravi Azərbaycan vətəndaşı bu sistemin uzun müddət yaşayacağına inanır.





**Hazırladı:**
**Tahir SÜLEYMAN**

## ANIM

***Bu gün ulu öndərimizin anım günüdür. Xalqımız sevimli övladını ziyarət etmək üçün, sübh tezdən əllərində tər qərənfillər-qızıl güllər axın-axın Fəxri Xiyabana Ulu Öndərimizi ziyarət etməyə gedirlər.***

Bu dahi insan Azərbaycan xalqının xoşbəxtliyi, onun dövlətçiliyinin və müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi yolunda gecə-gündüz çalışaraq özünü, sözün əsl mənasında şəhid etdi. 1990-1993-cü illərdə öz canından artıq sevdiyi və 70-ci illərdə onun şöhrətini bütün dünyaya yaymış bu dahi şəxsiyyət doğma Vətəni Azərbaycanın başının üstünü qara buludlar aldığı, dövlətimizin yox olmaq, əyalətlərə parçalanmaq, vətəndaş müharibəsi, qardaş qırğını təhlükəsi ilə üzüzə qaldığı, anarxiyanın, hərcmərcliyin, xaosun, separatçılığın, etnik münaqişələrin baş alıb getdiyi, erməni təcavüzkarlarının yeni-yeni hədələrinin davam etdiyi bir vaxtda onun xalqımızı mütləq əksəriyyətinin təkidli tələbi ilə yenidən respublikamızın rəhbərliyinə qayıdışı Azərbaycanı və milləti qaçılmaz fəlakətlərdən xilas etdi.

Azərbaycan xalqının min illik arzusunu tarixi reallığa çevirmiş xalqımızın qurbanlar bahasına əldə etdiyi müstəqilliyi zamanın çətin və keşməkeşli sınaqlarından çıxarıb, onu qoruyub saxlayan, sivil dünyanın və Avropa ailəsinin bir üzvünə çevirmiş Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində sevimli prezidentimiz Heydər Əliyevin xalqımızın tərəqqisi naminə göstərdiyi bütün xidmətlər göz qabağındadır və onları saymaqla qurtaran deyil. İkinci dəfə respublika rəhbərliyinə qayıtdığı ilk gündən Heydər Əliyev Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və cəmiyyət həyatında baş verən bütün köklü dəyişikliklərin və yeniliklərin təşkilatçısı, İlhamvericisi və istiqamətləndiricisi olmuşdur. Müdrik rəhbərimizin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin ilk Konstitusiyası yaradılmış, ilk dəfə demokratik yolla aparılan prezident seçkiləri keçirilmiş, ictimai-siyasi sabitlik bərqərar olunmuş, ölkədə yaşayan bütün millətlərin dostluğu və qardaşlığı təmin edilmiş, ana dilimiz bərpa olunmuş, dövlətçiliyimiz və müstəqilliyimiz üçün böyük əhəmiyyəti olan atəşkəs haqqında razılaşma əldə olunmuş, Azərbaycanın müstəqil dövlət kimi yaşaması üçün ilkin şərait yaradılmış, onun şəxsi göstəricisi, təşəbbüsü və rəhbərliyi ilə hökumətin iqtisadi proqramı işlənib hazırlanmış və indi müvəffəqiyyətlə həyata keçirilməkdədir.



# O ÖLMƏZDİR

Heydər Əliyevin Azərbaycana rəhbərliyi ilə ölkəmizin bazar iqtisadiyyatına keçməsi və bu sahədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində ölkə iqtisadiyyatının inkişafında özəl sektorun rolu və yeri də ildən-ilə artır və indi o, mühüm rol oynamağa başlamışdır.

Müstəqillik illərində ən çox yadda qalan və cahanşümul əhəmiyyət kəsb edən hadisələr arasında 1994-cü ilin may ayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin Müqaviləsi"nin imzalanması, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin tikintisinin reallaşması və işə düşməsi Azərbaycanda milli birliyin və sabitliyin təmin edilməsi, əlifbamızın və ana dilimizin bərpası, iqtisadi yüksəlişə nail olunması, qüdrətli ordu qurulması, dünyanın bütün ölkələri ilə hərtərəfli əlaqələrimizin yaradılması və inkişaf etdirilməsi, Azərbaycanda elmin və təhsilin inkişafına qayğının artırılması, dağılmaq təhlükəsi ilə üz-üzə qalmış Elmlər Akademiyasının Milli Elmlər Akademiyasına çevrilməsi və ona ən yüksək elmi idarə statusu verilməsi və s. bu kimi onlarca hadisənin adını çəkmək olar.

Möhtərəm Cənab Prezident! Atanızın yolunu davam etdirərək, "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" vədini verməklə Siz prezident seçildiyiniz ilk günlərdən xalqımızın ürəyini fəth etmiş, onlara qol-qanad vermisiniz. Allah hamımız üçün əziz olan atanız Heydər əliyevə rəhmət eləsin! Qəbri nurla dolsun!

Heydər Əliyev təkcə Azərbaycana deyil, bütün bəşəriyyətə məxsus olan ölməz qüdrətli şəxsiyyət idi. Biz onun əməllərinin, arzularının, yarımçıq qalmış işlərinin reallaşması və yerində qoyub getdiyi layiqli varisi - Sizin İlham Heydər oğlu Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin layiqincə yerinə yetirilməsi üçün əlimizdən gələni edəcək, həmişə Sizi dəstəkləyəcək və öz işimiz, əməllərimizlə Sizə arxa olacağıq. Qoy Ulu Tanrı Sizi qorusun.

***Dərin hörmətlə***
***Azərbaycan Milli EA İqtisadiyyat İnstitutunun direktoru,***
***AMEA-nın müxbir üzvü, i.e.d., professor***
***Şahbaz Muradov***

# XİLASKAR

Xalqa bir bəla, facia üz verəndə Böyük Yaradan onu xilas etmək üçün tarixi şəxsiyyətlər, xilaskarlar göndərir. Onlar ilahi qüdrət və nurla göndərilir və xalqın yoluna işıq saçır, qurtuluş yolunu göstərir. Heydər Əliyev belə şəxsiyyətlərdən idi. O, böyük siyasətin memarıdı. Siyasət isə elektrik cərəyanına bənzəyir. Hər ikisində bircə səhv, bircə diqqətsizlik ağır nəticələr verir. 30 ildən artıq Azərbaycana rəhbərlik edən Heydər Əliyevin daxili və xarici siyasətdə nəzərə çarpacaq bir səhvə yol verməməsi onun dahiliyinə dəlalət edir. Heydər Əliyev Azərbaycan reallığında böyük hadisə, bir epoxadır. Heydər Əliyev bir fenomen və tarixi şəxsiyyət idi. Onu sahilsiz, bir ümmana bənzətmək olar.

Azərbaycan xalqı qarşısında Heydər Əliyevin xidmətləri ölçüyə gəlməzdir. Onun bütün xidmətlərini bir yana qoyaraq, təkcə XX əsrin 90-cı illərində xalqı vətəndaş qarşıdurmasından, dövləti parçalanmaqdan xilas etməsi tarixi hadisə idi.

Mənə qalınca, onun ən böyük xidməti bir çox Afrika və Asiya ölkələrində baş verən daxili çaxnaşmalar, çevrilişlər nəticəsində dövlətin dayaqlarının laxladılması oyuncaq dövlətə çevrilməsi kimi çox qorxulu halın Azərbaycanda baş verməsini müdrikliklə qarşısını alması olmuşdur. Heydər Əliyevi ən uca dağ zirvəsinə bənzətmək olar. Aralandıqca, uzaqlaşdıqca onun möhtəşəmliyini hamı görəcək. Bununla bağlı çox ciddi bir məsələyə də toxunmaq istərdim. Bəzi istisnalarda Heydər Əliyev haqqında tələm-tələsik yazılmış kitablar meydana gəlib. Onun haqqında fundamental əsərlər, tədqiqat işləri təfəkkür sahibi olan tədqiqatçıların gözləyir. Heydər Əliyev yaradıcı adamlara, elmimizə, ədəbiyyatımıza, incəsənətimizə ümumiyyətlə mədəniyyətimizə böyük qayğı göstərirdi. Özü yaradıcı adam idi. Hər şeyə çox maraq və diqqətlə qulaq asırdı. Yaxşı yadımdadır, 2000-ci ildə Lökbatanda İlham Əliyev cənablarının təşəbbüsü ilə Qarabağ şəhid ailələri və əlillər üçün tikilmiş ilk binanın açılışında çıxışımı necə diqqətlə dinləyirdi.



Nədənsə Heydər Əliyev deyəndə mənim gözlərimin önünə Atatürk-Atatürk deyəndə Heydər Əliyev gəlir. Onların gördüyü tarixi işlərin miqyasında da, özlərində də, gözlərində də bir oxşarlıq vardı.

İnanmaq olmur ki, Heydər Əliyev əbədiyyətə qovuşub. Nə edəsən ki, Heydər Əliyevin də çox sevdiyi Səməd Vurğunun dediyi kimi, "sehrli bir aləm olan, bir yandan boşalıb, bir yandan dolan" fani dünyanın öz qanunları vardır. Təsəllini onda tapırıq ki, dövlətçiliyimiz Heydər Əliyevin sayəsində möhkəm özül üzərində bərqərar olub. Qatar sürət götürüb. Sükan arxasında Heydər Əliyevin işini və kursunu ləyaqətlə davam etdirməyə qadir, onun layiqli oğlu, Prezidentimiz İlham Əliyev durur.

Burada bir arzumu da bildirmək istərdim, şübhə yoxdur ki, qədirbilən xalqımız böyük insan Heydər Əliyevin xatirəsini əbədiləşdirmək üçün təkliflər irəli sürəcəkdir.

Mən bir ziyalı kimi arzu edərdim ki, Dağüstü parkın ən yüksək yerində onun əzəmətli heykəli ucaldılsın. Bu hamının ürəyindən olardı

***Qəzənfər PAŞAYEV***
***Filologiya Elmləri doktoru, professor***

# Heydər Əliyev xoşbəxt insan idi

İnsan kütləsinin içərisində növbədə dayanan zaman Heydər Əliyevə xalqın hədsiz məhəbbətininin bir daha şahidi oldum. Doğrudan da Heydər əliyev xoşbəxt insan idi. Körpədən ağsaqqala qədər Heydər Əliyevə olan sevgi məni heyrətə saldı. Heydər Əliyev Azərbaycanın Atatürkü idi. Azərbaycan xalqının sevimli oğlunu, Millət Atasını bu gün ziyarət etdik. İnsan axınının ardı-arası görünmürdü. Bu xalqın Ulu Öndərə olan məhəbbətindən irəli gəlirdi. . Azərbaycanı düşdüyü bəlalardan xilas edən, beynəlxalq aləmdə nüfuzunu yüksəldən və ölkəni böyük dövlətlərin sırasına daxil edə bilən öndərimiz xalqın üreyində əbədi yaşayacaq. O, bütün türk dünyasının sevimlisi idi. Mənim 82 yaşım var. Onun kimi xalqını sevən, bütün insanlara diqqət və qayğı göstərən ikinci şəxs tanımıram. Heydər Əliyevin



parlaq işləri barəsində saatlarla danışmaq olar. Allah-Təala qismət etdi ki, mən də Heydər Əliyevin dövründə yaşadım. Bu, bizim üçün ən böyük xoşbəxtlikdir. Bu gün Azərbaycan xalqının ürəyindəki kədərlə üzündəki iftixar hissi birləşib. Hesab edirəm ki, bu, analoqu olmayan bir hadisədir. Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzinin rəhbəri kimi ona ulu Tanrıdan rəhmət diləyirəm.

***Söhrab TAHİR,***
***xalq şairi.***

# HEYDƏR ƏLİYEV 85

**ATƏŞKƏS**

Alimi, müəllimi, ağsaqqal olan,
Vətənin dərdinə, qeydinə qalan.
91 - lər olan qrup yarandı,
Dedilər ölkəmiz artıq virandı.
Minnətə getdilər Bakıya dönsün,
Bu dava, bu atəş, bu alov sönsün
Götür-qoy eylədi, bir xeyli zaman
Vətən basılacaq, keçibdi dövran.
Düşmən qarşısına çıxmasam əgər,
Xalqıma misilsiz zərbələr dəyər.
Bir az da gec qalsam, Azərbaycanı,
Qurtara bilmərik olsa yüz canı.
Verdiyi sözlərə əməl edərək,
Atalar sözləri söylədi gərək.
Ömrümün qalan hissəsini mən,
Xalqıma verəcəm eşitsin Vətən.
Gəlişin gözlədik o vaxt, o anda,
Qayıtdı xilaskar dar bir zamanda.

**BAKIYA DÖNÜŞ**

Binə limanında bir çaxnaşma var,
Dağılıb buludlar, açılıb yollar.
Təyyarə göylərdən yerə enərək,
Bu xalqa, Vətənə layiqli gərək.
Dağılan ölkənin namus arını,
Qurtarmağa gətirib xilaskarını.
O ağır təyyarə yerə aldı yan,
Əllərdə gül-çiçək, meydan al-əlvan.
Xalq qarşılayırdı müdrik insanı,
Dünyayla bir olan, şöhrəti-şanı.
Açılır qapılar, görünür Günəş,
Qışqırır insanlar, sevincdən atəş.
Salamlar-salamlar Heydər babaya,
O günəş işıqlı, nurlu simaya.
Səni sevənlərin, heç gəlməz saya,
Səni çox görməsin bizə Xudnaya!
Toplaşır başına, qoca, cavan, qız,
"Xoş gəldin" söyləyir hərə bir ağız.
Sən ey güvəncimiz, ey and yerimiz,
Sənə qurban olsun, biz, hər birimiz.
Axışır kütlələr, gəlir durmadan,
Dərdini söyləyir ona ucadan.
-Xilas et qırğından, qardaş qanından,
Keçməsin cavanlar, şirin canından.
Ölkənin içi də, çölü də qandır,
Dağılan bu vətən, bir xanimandır.
"Bəylərin" bəyliyi aldatdı bizi,
Səbri tükənən xalq gözləyir Sizi.
Hər eldə-obada ağlaşma-şivən,
Qardaş qırğınına gəlir Gəncədən.
Bilmirik dəfn edək şəhid olanı,
Yoxsa cənazəsi yerdə qalanı.
Gedən torpaqların dərdini çəkək,
Düşmən çırağına neftmi tökək?
Şəhərdə yaranıb yeni bandalar,
Hər gecə qarətlər, yeni can alar.
Naümiddi millət, xəcalət halı,
Bir oğul gərəkdi bu qalmaqalı,
Qoymasın axmağa qardaşın qanı,
Qurtarsın bu dardan Azərbaycanı.

Cəbəhni ayırıb cəbhəçilərdən,
Özü də görünüb orduda hərdən.
Baxdı ki, gücümüz qüvvəmiz çoxdur
Sayımız çox isə sanbalı yoxdur.
Çiynində daşıdı yükünü elin,
Çox mahir plana uzatdı əlin.
Dayansın bu döyüş, bitsin bu təlaş,
Ölməsin insanlar, qurtarsın savaş.
Atəşkəs eylədi, durdu o andan,
Ağı - şivən səsi Azərbaycandan.
Qarışıq ölkədə silah və sursat,
Şəxsi əllərdəydi yox idi həyat.
Fərman verildi ki, silahlar gərək,
Yığılsın bu gundən 6 - ayadək.
Başqa bir fərmanla fərarilərə,
Ordunu bilərək tərk edənlərə,
Qaçan əsgərlərə yeddi il cəza,
İndi kim istəyər yolunu aza .
Öyrətdi əsgərin əsgər borcunu,
Göründü ölkədə savaşın sonu.
Silahlı qruplar böyük bandalar,
Tərksilah edildi qollarda qandal.
Ölkədə firəvan başladı həyat,
Xalqımız sevindi, qurdu toy - büsat.

**ƏSRİN MUQAVİLƏSİ**
**20 SENTYABR 1994-il**

Sərvəti başına bəla bu ölkə,
Qazancın yeməmiş, o bircə tikə.
Bir vaxtlar qazancın sovetlər aldı,
Neftin gəlirindən quru ad qaldı.
İndisə müstəqil olub ölkəmiz,
Quyruqdan yağlıdır, hər bir tikəmiz
Yeraltı sərvəti, bağı - bağatı,
Firavan olmalı ölkə həyatı.
On iki iqlimdən doqquzu bizdə ,
Sitrus da yetişir bu ölkəmizdə.
Pambığı, taxılı, üzümü, narı,
Elin sərvətidir məhsulu barı .
Heyvanlar aləmi meşələr, oylaq
Gözə işıq verir, yamyaşıl yaylaq.
Aranı bağ - bağça, dağı qəşəngdir,
Göydə göy qurşağı yeddicə rəngdir
Çayların, göllərin, dənizin, suyun,
Cənnətdə taparsan, oxşarın tayın.
Nərə balığının, dəniz sürüsü,
Dünyaya bəllidi qara kürüsü.
Bu gözəl nemətlər, bu cəhcəlalı,
Ölkəmizdə olan sərvəti - malı,
İşğaldan qoruyub ya saxlamalı,
Təmizə çıxarmaq bu qalmaqalı.
İşğalçı quvvələr qatıb aranı,
Hər yandan sovurur qarı - boranı.
Parça - parça olsun, dağılsın ölkə,
Hərəsi qoparsın yağlı bir tikə.
Daxili çaxnaşma, tərs əsir külək,
Sabitlik yaradaq, hələ bir görək.
Atəşkəs elədik savaş durubdur,
Beyni qan olanlar bizi yorubdur.
Məhləsinə çəpər çəkə bilməyən,
Toyuğuna bir hin tikə bilməyən ,
Bu meydan bizimdir deyərək ərklə
Sərvəti - nefti sizə gərək nə?
Xaricdən ölkəyə gözü olana,
Bu elin malına həsrət qalana.
Verərik aparın, qoy sizin olsun,
O ali kürsüdə say bizim olsun.
Şimal bölgəsini, Dağıstan alsın,
Mil - Muğan çölləri İrana qalsın.
Sərhədin Kürəcən çəksin erməni,
Avropa - Fransa yazsın naməni.
Gözün aydın olsun ay "dahi vartan"
Gör necə böyüyüb "Böyük Hayastan"
Bakı, bir də nefti bizlərə bəsdir,
Çarpışıb vuruşmaq daha əbəsdir.
Meydan sulayırlar, meydan açırlar,
Düşməndən vəd verib, şiddət saçırlar.
Dahi çox düşmür, söyləyirəm ki, mən,
Elə edəm gərək, sevimli vətən.
Öz sərvəti ilə, olsun firəvan,
Təhlükəsiz olsun, keçirsin dövran.
Ona toxunmasın, nə güclü zəif,
Neftin bölgüsünü, edək müxtəlif.
Dənizin dibində olan sərvəti,
Bir fikir olaraq deyirəm qəti.
Gücümüz yoxdur ki, çıxaraq üzə,
Kim nə deyə bilər, həqiqət sözə.
Maliyyə korlanıb, ölkə kasıbdır,
Kasıblıq şəhəri, kəndi basıbdır.
İşsizlik, pulsuzluq yaradıb böhran,
Qaçqınlar ordusu, olub bir tufan.
Aclıq təhlükəsi hər yanı alıb,
Ölkəmiz yardıma, bax möhtac qalıb.
Qərb ölkələri ilə gedən danışıq,
Nəticə vermirdi, vardı dolaşıq.
Amerika, Kanada digər ölkələr,
Ekspert göndərdi verildi rəylər.
Londonda keçirildi böyük məşvərət,
Rəhbər bəyənməyib dedi nəhayət.



Milli sərvətimiz, Milli varımız ,
Gəlir qaynağımız, qazanc karımız.
Xəzərin dibindədir qızıldır qara,
Xalqımız düşməsin pis günə dara.
Qarşılıq Prinsipi olmasa əgər,
Bü günkü lahiyə heç nəyə dəyər.
Çıxarı varı isə hər bir şirkətin,
Bizi qane etsin, olmasın çətin.
Azəri, Çıraq bütöv çətirdən,
Günəşli yatağı iki yüz metrdən.
Dərin olan yerdə gərək qazılsın,
Dərin dəryalara işıq salınsın.
511 milyon ton, neft çıxacaq,
Hasil olan qaz da, bizə qalacaq.
Kapital qoyuluşun 80 faizi,
Qərblilər verəcək, oldüq biz razı.
Çıxarılan neftin yarısı bizim,
Qəbül eləyirlər, veririk izin.
7 milyard dollar ödəyir onlar,
Mənfəət bizimdir 34 milyard.
Yeni lahiyəni bəyənirəm mən,
Neftin hasilatı bölünməli tən.
Qane etməsə də bütün qaydalar,
Razı olmasaq da çarəsiz qalar.
Onun üçün uyğundur yeni lahiyə.
Neft şirkətinə verildi fərman,
Saziş imzalansın, olunsun elan.
Bilirsiz "AMOKO" Britiş Petrol" ,
Remko, Maklermot bir də Penzoyl.
Qərbin neft şirkəti bilinki bunlar,
Dənizin dibini, altını oyar.

Qonaqlar gəlmişdi çoxlu ölkədən,
Birləşmiş Ştatdan, İngiltərədən.
Norveçin heyyəti, nümayəndələr,
Tarixi bu gündə, olur gör nələr.
Azəri paytaxtı Bakı şəhəri,
94-cü ilin payız səhəri.
Mühüm bir sazişin şahidi olur,
Gülüstan sarayı qonaqla dolur.
Amerikadan bura gələn qonaqlar,
Rusiya heyyəti, qardaş Türkiyə ,
Norveçin nümayəndə heyyəti ilə,
Xoş gəldin deyirəm mən hamınıza.
Salamladı rəhbər bir - bir hər kəsi,
Yayıldı dünyaya o həzin səsi.
Türkiyədən olan dövlət naziri,
Nəcməddin Cövhəri heyyət vəziri.
Böyük Britaniyanın enerji varı,
Salamladı Timodi cənab Eqqarı,
ABŞ dövlətindən Ulyam Uaytı.
Təmsil eyləyirdi enerji saytı,
Norveçin sənaye açar qarantı,
Salamladı cənab Qunnar Murvatı.
Rusiyadan gələn komanda tacı,
Yanacaq rəisi cənab Puqaçı.
Salamlayıram mən bütün heyyəti,
İranın inkişaf bankı, Cəfəri
Ocam Fakihi də salamlayıram,
Gələn qonaqlara böyük ehtiram.
"AMOKO" prezidenti cənab Ulyam Uaytı,
"Bi - Pi" şirkətindən "Con - Brauni".
"Statoyl" şirkətinin rəhbəri olan,
Yohan Nike Voldu salamlayıram.
"Lukoyl" rəhbəri əziz həmvətən,
Vahid Ələkbərov işində otkəm.
"Mak - Dermot" heyyətinin başçısını,
Salamlayıram cənab Ulyam Vitsini.
"Penzoyıl" rəhbəri Tomas Hamilton,
"Remko" şirkətindən Remko Stiven.
Türkiyə petrollari Sidqi Səncəri,
Delta şirkətinin sadiq rəhbəri.
Fateh - əp - Albanı salamlayıram,
"Yonokal" şirkətinə böyük ehtiram.
Con Ameli cənab xoş gəlmisiniz,
Bizlərə bilin ki, şərəf verdiniz.
Sonra xitab edib, dedi ucadan ,
Neft tarixində əmək yaradan.
Bakı örnək olub bütün dünyaya,
Bənzəri olmayıb o tay, bu taya.
İştirakçı olan bütün şirkətə,
Otuz il ərzinlə uzun müddətə.
Xeyir dua verdi el qaydasıyla,
Tarixi sənədi xalq imzasıyla.
Əsrin müqaviləsi bağlandı o gun,
Dünyaya qapılar açıldı duzgün.
İmzalar atıldı, Sənədlər bitdi,
Rəhbər gələnlərə təşəkkül etdi.

*Ramiz QƏRİB*



## O, DÜNYA DURDUQCA YAŞAYACAQDIR

Dünya şöhrətli siyasətçi, tarixin Azərbaycan xalqına bəxş etdiyi nadir şəxsiyyətlərdən biri olan Ümummilli lider Heydər Əliyev uzun illər xalqımızın rəhbəri olmuş, həyatını xalqın xoş, firəvan yaşaması üçün həsr etmişdir. Bu gün xalqımız xoşbəxt güzəran üçün məhz Heydər Əliyevə borcludur. Heydər Əliyev tariximizdə xüsusi rolu olan bir şəxsiyyətdir. Onun əməlləri və xoş xatirəsi qəlbimizdə əbədi iz salıb, onun yaratdığı dünya durduqca yaşayacaq. Allah-təala onun ruhunu şad eləsin, Amin!

## Babamız

*Heydər Əliyevin 85 illiyinə həsr edirəm*

"Soyqırımı" çoxdan olmuş, çoxdandı,
Fəqət ona qiymət verdi, Babamız.
O soyuq qəlbilər onu çox dandı,
O danmağı yaxşı gördü, Babamız.

Baş qaldırdı ölkəmizdə nadanlar,
Nadanlar günahsız tökdülər qanlar.
Öldü neçə igid, məğrur cavanlar,
Düşmənin cəhdini qırdı, Babamız.

Axır elan etdi "Soyqırım" günü,
Babam aça bildi bağlı düyünü.
Heç kim görə bilməz o, gördüyünü,
Xoş günə çıxartdı yurdu, Babamız.

Tək çalışdı, gecə-gündüz yatmadı,
El-obanı Elçi kimi atmadı.
Günəş oldu, gecələrdə batmadı,
Yaradıbdır möhkəm ordu, Babamız.

Əzəmətli işlər gördü hünəri,
Gücün çatmaz, ay erməni, sərsəri!
Qalx ayağa xalqım, elə təpəri!
Düşməni vaxtında vurdu, Babamız.

Qarabağda qanlar axdı, selləndi,
Qan selləri dərələrdə göllendi.
Qız gəlinlər qayalardan hellendi,
Yaxşı ki, Bakıya vardı, Babamız.

Xalqın güvəndiyi sərkərdəsi var,
Babamdan qalıbdır İlham yadigar.
Fəqət başa düşmür səviyyəsi dar,
Erməni gözündə qordur, Babamız.

Nəriman Əyyubun güvənci İlham,
Xalqı qoymayacaq naümüd, nakam.
Onu yetişdirib o, Öndər Babam,
Bütün ürəklərdə vardı, Babamız.

*Nəriman ƏYYUB*



# ДИПЛОМАТ

Последняя страница

№ 09 (85) 01-15 мая 2008 ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА


## ГЕЙДАР АЛИЕВ 85

# Большие таланты Гейдара Алиева

**10 мая исполняется 85 лет со дня рождения Гейдара Алиева, национального лидера азербайджанского народа, который на протяжении многих лет оставался бессменным президентом суверенной республики.**

Политик, уважаемый далеко за пределами своей страны, человек, широко образованный и высоко интеллектуальный, руководитель, заботящийся о своем народе, - тот, кому не находят равных... Можно еще долго собирать высокие эпитеты с уст тех, кто хранит теплые воспоминания о старом друге. Но все они сходятся в одном определении: "Гейдар Алиевич- талантливый человек".

Музыковед Жанна Дозорцева вспоминает о гастролях в Баку как о самых счастливых моментах своей жизни. В то время ей несколько раз приходилось слушать выступления президента. "Выступает Гейдар Алиевич по проблемам медицины, и такое впечатление, что человек всю жизнь только медициной и занимался; говорит о проблемах транспорта, и кажется, что это величайший транспортник". Кроме того, Алиев увлекался музыкой, хорошо разбирался в искусстве и заботился о культуре своего народа. Тогда был создан Университет "слушания музыки партийно-хозяйственного актива" - так его называли советские артисты, выступавшие перед руководством страны.



А бывший член ЦК Компартии Азербайджана, генерал-полковник Александр Ковтунов, прослуживший 8 лет в Азербайджане, среди талантов Алиева отметил хорошее знание военного дела и своих войск. "Когда я попал к нему на прием, мы долго беседовали по вопросам мобилизационной боевой готовности республики, о прикрытии государственных границ, он знал, видимо, каждую пядь земли на границе", - вспоминает генерал-полковник.

Никас Сафронов, близко знакомый с семьей Алиевых, помнит свое удивление тому, как детально Гейдар Алиевич изучал свой портрет, подаренный известным художником, и как точно его комментарии совпадали с идеей автора. Действительно, талант! Сегодня целый ряд работ российского художника посвящен Азербайджану и его видам, а часть из них уже является частной коллекцией семьи Алиевых. Среди картин из коллекции азербайджанских пейзажей есть и большое полотно "Красоты Нахичевани" -того самого автономного региона страны, отделенного от нее территорией Армении, где 10 мая 1923 года родился будущий президент Азербайджана.

Ректор Бакинского славянского университета Кямал Абдулла и один из авторов биографической книги о Гейдаре Алиеве Виктор Андриянов отметили заботу бывшего президента о воспитании молодежи. Кямал Абдулла навсегда запомнил выступление Алиева перед ректорами азербайджанских университетов, в котором он сказал: "Молодежь - мое вам завещание". А сам в это время занимался воспитанием сына Ильхама, который теперь продолжает политику отца в президентском кресле и продолжит историю семьи Алиевых в следующей книге Андриянова.

Гейдар Алиев оставил Азербайджан относительно стабильной страной, при нем республика вошла в СНГ, при нем надолго укрепились связи с Россией. Тем не менее, Азербайджан не стал исключением из числа стран, которые вызывают критику по вопросам прав человека, свободы слова и демократичности выборов.

Талант строгого политика распространялся почти во всех жизненных сферах. Сегодня очень много тех, кто благодарен Алиеву за участие в их судьбе, кто хранит память о друге, соратнике и руководителе./ **rian.ru/**

# Торжества, посвященные 85-летию Гейдара Алиева, проходят и в Гяндже



В эти часы в парке имени Физули, на площади Истиглал и в Сардар багы проходят праздничные концерты.

В Гяндже в торжественной обстановке отмечается 85-летие со дня рождения Гейдара Алиева.

Утром руководство города, представители общественности возложили цветы к подножию памятника Г.Алиеву. Затем они осмотрели экспозицию музея памяти. По информации городской исполнительной власти, переданной в гянджинский медиа-центр, в эти часы в парке имени Физули, на площади Истиглал и в Сардар багы проходят праздничные концерты.

# Президент Ильхам Алиев вместе с семьей посетил могилу Гейдара Алиева

**Среди посетителей имеются официальные лица, члены правительства, представители посольств, аккредитованных в Азербайджане, а также рядовые граждане республики.**

85-летие со дня рождения Г.Алиева отмечается в Азербайджане на государственном уровне. По сообщению ANS-PRESS, с утренних часов 10-мая в массовом порядке началось посещение могилы Гейдара Алиева в Аллее почетного захоронения. Президент Ильхам Алиев вместе с членами своей семьи посетил могилу Г.Алиева. Среди посетителей имеются официальные лица, члены правительства, представители посольств, аккредитованных в Азербайджане, а также рядовые граждане республики. Посещение могилы общенационального лидера продлится в течение всего дня. **/ANS-PRESS/**





Глава государства выразил благодарность автору мемориальных досок, народному художнику Азербайджана, академику Омару Эльдарову.

Сегодня в Баку на улице Зарифы Алиевой состоялось открытие мемориальных досок общенациональному лидеру Гейдару Алиеву и его супруге академику Зарифе ханум Алиевой. Мемориальные доски установлены на доме 22, в котором проживали Гейдар и Зарифа Алиевы.

# В Баку состоялось открытие мемориальных досок Гейдару и Зарифе Алиевым

Президент Ильхам Алиев снял белое покрывало с мемориальных досок, возложил к ним цветы. На мемориальных досках написаны слова: "В 1962-1982 годах в этом доме жил общенациональный лидер азербайджанского народа, основатель современной Азербайджанской государственности, президент Азербайджанской Республики Гейдар Алирза оглу Алиев" и "В 1962-1982 годах в этом доме жила выдающийся общественный деятель Азербайджана, академик Зарифа Азиз гызы Алиева".

Глава государства выразил благодарность автору мемориальных досок, народному художнику Азербайджана, академику Омару Эльдарову.


TƏSİSÇİ VƏ BAŞ REDAKTOR:
TAHİR SÜLEYMAN

İMTÎYAZ Û SERNÎVÎSAR:
TAHÎR SILÊMAN

УЧРЕДИТЕЛЬ И ГЛАВНЫЙ РЕДАКТОР:
ТАХИР СУЛЕЙМАН

Tel: +994 50 352-33-18

Azərbaycan şöbəsinin redaktoru:
NƏRİMAN ƏYYUB

Xüsusi müxbir:
RAMİZ CƏBRAYILOV

Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Ünvan: Bakı şəhəri, 40
Küçə S.Mehmandarov ev 25, mənzil-17

Navnîsan: Bakû 40 soqaq
S.Mêhmandarov xanî 25 mal-17

Адрес: Баку 40, улица.
С.Мехмандарова дом 25 кв-17

e-mail: diplomat_gazeti@box.az
Şəhadətnamə: N FŞ 005004966
BUSB-un 2 saylı
Sabunçu rayon filialı
VÖEN 1800061582
H/h 438010000

Sifariş: 1250
Tiraj: 1000